"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".
Heydər Əliyev

Heydər Əliyev - xalq birliyi əbədidir!

AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 01-02 (995) | 18-23 yanvar 2017-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

Prezident İlham Əliyev yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad edib

Qara Yanvar hadisələrindən 27 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 27 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.





20 Yanvar faciəsi

Müasir tariximizin şərəfli səhifələrindən biri olan 20 Yanvar faciəsindən 27 il keçir. Xalqımızın böyük qürur hissi ilə qeyd etdiyi 20 Yanvar hadisəsi Azərbaycan xalqının azadlıq, demokratiya uğrunda apardığı mübarizəni bütün dünya xalqlarına bəyan etdi. Müstəqilliyimizin bərpa olunmasına aparan bu yolda yüzlərlə şəhid verilsə də, heç kim bu yoldan çəkinmədi, hamı imperiya qüvvələrinə qarşı aparılan mübarizədə fəal iştirak etdi.

Qanlı 20 Yanvar faciəsinə aparan yol hələ bir neçə il ondan əvvəl görünürdü. Hakimiyyətdə olan qüvvələrin zidd-diyyətli hərəkətləri, Ermənistanın Azərbaycana qarşı apardığı ərazi iddiasının ədalətli həll olunmasına imkan vermirdi. Bütün bunlar azadlıq uğrunda mübarizə aparan qüvvələri ölkəmizdə ayağa qaldırdı, həmin dövrdə meydana çıxan qondarma Dağlıq Qarabağ problemini daha da gərginləşdirdi. Belə vəziyyətdə xalqımızın qeyrətli oğulları ayağa qalxaraq torpaqlarımızı düşmən tapdağından qorumaq üçün silaha sarındı və silahlı erməni quldurlarına qarşı açıq-aydın mübarizə apardılar.

Lakin həmin dövrün ictimai-siyasi vəziyyəti təhlil olunarkən belə bir fikir söyləməyə əsas verir ki, həmin dövrdə dövlətimizin başında duran sərişdəsiz qüvvələrin rəhbərliyi ilə bu gərgin problemi həll etmək mümkün deyildi.

tariximizin şərəfli səhifəsidir

Yaranmış vəziyyət onunla nəticələndi ki, erməni silahlı qüvvələri dövlət sərhədlərimizi pozaraq Dağlıq Qarabağ istiqamətində vətənimizə silahlı basqınlar etdilər.

Keçmiş SSRİ dövlətinin başında dayanan millətçi Mixayıl Qorbaçovun erməni millətçilərinə havadarlıq etməsi vəziyyəti daha da gərginləşdirdi və yanvarın 19-dan 20-nə keçən gecə Bakıda, eləcə də ölkəmizin digər sərhəd bölgələrində qanlı faciələr törədildi.

Müdhiş yanvar gecəsində yüzlərə azərbaycanlının qanı töküldü, əliyalın, dinc əhali üzərinə yeridilən rus qoşunları neçə-neçə ailələri başsız qoydu. M.Qorbaçovun göstərişi əsasında Bakı şəhərinə yeridilən rus ordusu kütləvi şəkildə dəhşətli qırğın və dağıntılar törətdi.

Sovet hərbi maşınlarının gücü ilə Bakı küçələrində vətənin müdafiəsinə qalxan neçə-neçə igid oğulların qanı axıdıldı. Bütün bunlara sadəcə olaraq Azərbaycana və azərbaycanlılara qarşı rus imperiyasının törətdiyi ağır cinayətdən başqa bir qiymət vermək mümkün deyildi.

Belə bir ağır dövrdə Azərbaycan xalqı öz inam və ümid yeri olan ümummilli lider Heydər Əliyevi Azərbaycana dəvət etdi. Onun ikinci dəfə respublikamıza rəhbərlik etməyə başlaması əsl həqiqətin üzə çıxmasına şərait yaratdı . Heydər Əliyevin rəhbərliyi əsasında, 1994-cü ildə 20 Yanvar faciəsinə hüquqi və siyasi qiymət verildi.

Dəhşətli 20 Yancar faciəsindən uzun illər keçməsinə baxmayaraq, həmin günü həlak olanların xatirəsi həmişə yad edilir. 20 Yanvar faciəsinin qurbanları və şəhid ailələri həmişə dövlətimizin diqqət mərkəzində saxlanılır. Respublika prezidenti cənab İlham Əliyev şəhidlərin adlarının həmişə uca tutulmasına, onların ailələrinin sosial problemlərinin həll edilməsinə xüsusi diqqət və qayğı göstərir. 20 Yanvar faciəsinin qeyd edilməsinə hazırlıq görüldüyü bir vaxtda şəhid ailələrinə göstərilən qayğı və diqqət bunu aydın əks etdirdi.

20 Yanvar faciəsinin qeyd olunmasına hər yerdə olduğu kimi, Ağstafada da böyük hazırlıq işləri görüldü, rayonun bütün yaşayış məntəqələrində faciənin 27-ci ildönümünə həsr olunmuş tədbirlər təşkil olundu. Həmin mərasimlərdə 20 Yanvar faciəsinin və eləcə də bütün şəhidlərin xatirəsi yad edilərək onların ruhuna dualar oxundu. Bütün bunlarla yanaşı yanvar faciəsinin qurbanlarına həsr edilmiş ədəbi-bədii kompozisiyalar təşkil edildi. Şəhidlərə həsr olunnmuş şeirlər və mahnılar səsləndirildi.

Ənənəyə uyğun olaraq yanvar ayının 20-də Ağstafadakı “Şəhidlər xiyabanı”nda da böyük izdiham yaşandı. Həmin gün Şəhidlər xiyabanını yüzlərlə ağstafalı ziyarət etdi. Mərasimə gələnlər şəhidlərin qəbirləri üzərinə tər çiçək dəstələri qoydular. Vətən torpağı uğrunda canlarından keçən, şəhid olan eloğlularımızın valideynləri, yaxın qohumları öz əzizlərini yad etdilər. Şəhidlər xiyabanına arası kəsilməyən insan axını xeyli davam etdi. Bu axının önündə Rayon icra hakimiyyəti aparatının işçiləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, müharibə və əmək veteranları gedirdi. Onlar şəhidlərin qəbirlərini ziyarət edərkən şəhidlərin yaxın qohumları ilə görüşdü, onlara başsağlığı verdilər və vətən yolunda şəhid olanlara allahdan rəhmət dilədilər.

İcra nümayəndələri

Eynallı kəndi

Yanvarın 13-də Rayon icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə nümayəndəsi Şakir Hüseynov 2016-cı ildə gördüyü işlər və qarşıda duran vəzifələr barədə ictimaiyyət qarşısında hesabat vermişdir.

Ş. Hüseynov yığıncaqda qeyd etdi ki, Eynallı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi Eynallı kənd yaşayış məntəqəsini əhatə edir. Kəndin ərazisində 750 təsərrüfat olmaqla, 2690 nəfər əhali yaşayır. Kənd əhalisinin əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır. Kənd əhalisinin 62 faizi əmək qabiliyyətlidir ki, bu əhalinin 298 nəfəri ayrı-ayrı sahələrdə işləyirlər.

Kənddə 2015-2016-cı təsərrüfat ilində əkilmiş 320 hektar taxıl sahəsindən 28 sentner məhsul əldə olunmuşdur ki, bu da əvvəlki ildəkindən xeyli şoxdur. Bütün bunlardan əlavə kənd əməkçiləri öz əkin sahələrində kartof, soğan və digər yazlıq bitkilər əkmişdirlər ki, həmin əkin sahələrindən yüksək məhsul əldə olunmuşdur.

Hesabat ilində Rayon icra hakimiyyətinin başçısı M. Quliyev bir neçə dəfə kənddə olmuş və kənd ictimaiyyəti ilə görüşlər keçirmiş, kənddə mövcud olan problemlərin həll edilməsi üçün onlara yaxından köməklik göstərmişdir.

Ş. Hüseynov məruzəsində qeyd etdi ki, icra hakimiyyəti başçısının kəndə gəlişindən sonra onun tapşırığı və göstərişi əsasında kəndin arasından keçən dəmir yolu xətti üzərində keçid quraşdırılmış, kənd ağsaqqallarının, ictimaiyyət nümayəndələrinin boş vaxtlarında istirahət üçün kəndin mərkəzində bələdiyyə parkı tikilib istifadəyə verilmişdi. Bütün bunlarala yanaşı icra başçısının göstərişi əsasında kənddəki yeni yaşayış məhəllələrinə 2 ədəd yeni güc transformatoru qoyulmuş və bu transformatorlardan birinin qarşısında yerləşən yaşayış evləri kabelləşdirilmişdir. Həmin dövrdə 15 km kəndarası yollar xırlanmış, kəndin ərazisində 6 ədəd dörd kilovoltluq, 2 ədəd on kilovoltluq dayaqlar qoyulmuş, 200 metr elektrik naqilləri dəyişdirilmişdir.

Hesabat ilində həmçinin kənd icra nümayəndəsinin və bələdiyyənin daxili imkanları hesabına kənddə bir sıra işlər görülmüşdür. Belə ki, kəndin ərazisində mövcud olan üç kilometrə yaxın suvarma arxları təmizlənmiş, gələcəkdə baramaçılığın inkişaf etdirilməsi üçün 7 min ədəd tut tingi əkilmişdir.

Kənd əhalisinin içməli suya və suvarma suyuna olan tələbatının ödənilməsi üçün xeyli iş görülmüşdür. Belə ki, içməli və suvarma su xətlərinin çürümüş hissələri dəyişdirilmiş, elektrik naqillərinə maneçilik törədən ağaclar kəsilmişdir.

Hesabat dövründə icra nümayəndəsinin vəsaiti hesabına iki imkansız ailənin yeni tikilmiş yaşayış evinə qaz xətti çəkilmiş və bütün bunlardan əlavə bir neçə ailəyə maddi yardımlar edilmişdir. Hesabat dövründə kəndin bütün əhalisinin evlərinin qazlaşdırılması işi başa çatdırılmış, xüsusilə kənddəki məktəbin qazanxana sistemində olan qüsurlar tam aradan qaldırılmışdır.

Kənd icra nümayəndəsi Ş.Hüseynov qeyd etdi ki, Eynallı kəndində heyvandarlığın inkişaf etdirilməsi üçün yaxşı imkanlar vardır. Hazırda kənd əhalisinin əsas gəlir mənbəyi olan heyvandarlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Hazırda vətəndaşlara məxsus təsərrüfatlarda 490 baş iribuynuzlu qaramal, 2644 baş xırda buynuzlu davar və 6998 baş quş saxlanılır.

Ş.Hüseynov məruzəsində göstərdi ki, görülmüş işlərlə yanaşı kənddə bəzi problemlər vardır. Bu problemlərin həll olunması üçün daxili imkanlardan istifadə ediləcəkdir. Lakin bütün bunlara baxmayaraq elə problemlər vardır ki, həmin problemlərin həll edilməsi onların imkanından bir qədər xaricdədir. Belə ki, kənddə nümayəndəliyin inzibati binası müasir tələblərə cavab vermir, 1940-cı ildə inşa edirlmiş binada körpələr evi və uşaq bağçası yerləşir ki, bu da ciddi narahatlıq doğurur. Kənddə yeni poçt binasının tikilməsinə də ehtiyac vardır.

İcra nümayəndəsi məruzəsinin sonunda əmin olduğunu bildirdi ki, rayon rəhbərliyi həmin problemlərin həll olunmasında onlara yaxından köməklik göstərəcəkdir.

Məruzə yığıncaqda geniş müzakirə olundu. Təqaüdçü müəllim Həsənəli Rəhimov çıxış edərək göstərdi ki, Ağstafa-Köçəsgər yolundan kəndin mərkəzinə gələn küçə tamamilə yararsız vəziyyətdədir. O, həmin yolun təmir edilməsində və yola asfalt döşəmə salınmasında onlara yaxından köməklik göstərilməsini rayon rəhbərliyindən xahiş etdi.

Təqaüdçü İbrahim Cəfərov, kənd sakini Təvəkkül Əliyev çıxış edərək su arxlarının betonlaşmasında, kəndin ərazisində mineral gübrə bazalarının yerləşdirilməsində onlara köməklik göstərilməsini xahiş etdilər.

Yığıncaqda Rayon icra hakimiyyətinin başçısı M. Quliyev iştirak etmiş və geniş nitq söyləmişdir. M. Quliyev ötən illərdə respublikamızın sosial-iqtisadi həyatında baş verən yeniliklər barədə yığıncaq iştirakçılarına geniş məlumat verdi və qeyd etdi ki, ölkəmizdə əldə edilən böyük qələbələrdə ağstafalıların da zəhməti vardır. 2016-cı il rayonun tarixində ən mühüm illərdən biri oldu. Keçən il dövlət başçımızın Ağstafaya səfəri rayonda yeni layihələrin həyata keçirilməsinə start verdi.

M. Quliyev mineral gübrə bazalarının Ağstafanın ərazisində, o cümlədən Eynallı kəndinin yaxınlığında yerləşdirilməsi üşün Rayon kənd təsərrüfatı idarəsinin rəhbəri İltifat Əliyevə xüsusi tapşırıq verdi. Bütün bunlardan əlavə M. Quliyev yığıncaqda çıxış edən kənd sakinlərinin digər təkliflərinə də öz münasibətini bildirdi və əlaqədar təşkilat rəhbərlərinə xüsusi tapşırıqlar verdi.

Yığıncağın sonunda Rayon icra hakimiyyətinin başçısı Eynallı kəndinin bütün sakinlərini yeni il münasibətilə təbrik etdi, onlara 2017-ci ildə yeni uğurlar arzuladı.

Tatlı kəndi

Bu il yanvar ayının 16-da Rayon icra hakimiyyəti başçısının Tatlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin 2016-cı ildə görülmüş işlər və qarşıda duran vəzifələr barədə hesabat yığıncağı olmuşdur.

Yığıncaqda icra nümayəndəsi Qoşqar Hüseynov hesabat vermiş və qeyd etmişdir ki, Tatlı kənd İnzibati Ərazi Dairəsi Tatlı və Yaradullu kənd yaşayış məntəqələrini əhatə edir.Tatlı kənd İnzibati Ərazi Dairəsi rayon mərkəzindən 13 km aralı məsafədə yerləşir. Tatlı kəndi DağKəsəmən, Göycəli, Eynallı, Köhnəqışlaq kəndləri ilə qonşu, Tovuz rayonu ilə və Ermənistanla 4.5 km sərhəddə yerləşir.Tatlı kəndinin əhalisi 2671 nəfər olmaqla orada 663 təsərrüfat vardır. Əhalinin 1763 nəfəri, yəni 66%-i əmək qabilyyətlidir. Əmək qabiliyyətli əhalinin 340 nəfəri dövlət və qeyri-dövlət müəssisələrində daimi işlərdə, qalan hissəsi isə fərdi torpaq sahələrində çalışır.

Tatlı kənd İnzibati Ərazi Dairəsinin imumi sahəsi 3279 hektardır. Ərazi əkinçilik və heyvandarlıq istiqamətində inkişaf etdirilir.Əkinçiliyin əsasını taxılçılıq təşkil edir. 2016-cı ildə 660 ha taxıl sahəsindən 17484 ton məhsul istehsal olunmuş , hər hektardan 26.5 sentner məhsul ğötürülmüşdür.10 ha kartof sahəsindən 1612 ton, 4 ha qarğıdalı sahəsindən 13.3 ton, 7 ha tərəvəz sahəsindən 755 ton məhsul istehsal olunmuşdur. Heyvandarlığın inkişafı üçün əlverişli şəraitə malik olan ərazidə əhalinin təsərrüfatlarında 924 baş iribuynuzlu mal-qara, 5298 baş xırda buynuzlu davar, 6802 baş quş, 62 baş at, 97arı ailəsi saxlanılır.

Tatlı kənd İnzibati Ərazi Dairəsində Tatlı kənd tam orta məktəbi və Yaradullu kənd əsas məktəbi fəaliyyət göstərir. Məktəblərdə 346 nəfər şagirdin təlim-tərbiyəsi ilə 50 müəllim məşğul olur. 2016-cı ildə məktəbin məzunlarından 8 nəfəri ali məktəbə,5 nəfəri orta ixtisas məktəblərinə qəbul olmuşdur.

Tatlı kəndində 3 körpələr evi-uşaq bağçası fəaliyyət göstərir.Tatlı kənd 2 saylı körpələr evi-uşaq bağçasında təmir işləri başa çatdırılmış,Tatlı kənd 1saylı körpələr evi-uşaq bağçası qəzalı vəziyyətdə olduğu ücün Tatlı kənd tam orta məktəbinin yardımçı binasına köçürülmüşdür.Yaradullu kənd körpələr evi-uşaq bağçası uyğunlaşdırılmış binada yerləşir.

Tatlı kəndində qaz xətlərinin yenidən çəkilməsi işlərinə başlanılmışdır.Tatlı-Köhnə Qışlaq avtomobil yolunda əsaslı təmir işlərinə başlanılmış və işlər davam edir.Təbii fəlakət nəticəsində uçmuş iki ədəd körpü,yenidən bərpa olunmuşdur.

Tatlı kəndində 25 çarpayılıq Tatlı kənd həkim məntəqəsi və Yaradullu kənd tibb məntəqəsi yerləşir. Ərazidə 2 klub və 2 kitabxana fəailiyyət göstərir. Qəzalı vəziyyətdə olan Tatlı kənd klubu və kitabxanası başqa binaya köçürülmüşdür.Yaradullu kənd klubu və kitabxanası nümayəndəliyin inzibati binasında yerləşir,daxili imkanlar hesabına təmir olunmuşdur.

Əhalinin elektrik və qazla təminatı yaxşılaşmış, bu sahədə xırda nöqsanlar nəzərə alınmasa əhali təbii yanacaq və elektrik enerjisi ilə tam təmin olunmuşdur.

Hesabat dövrundə icra nümayəndəliyinə 14 ərizə və məktub daxil olmuş,34 nəfər vətəndaşın qəbulunun uçotu aparılmış,kənar təşkilatlardan 23 məktub daxil olmuşdur.

Respublikamızda və rayonumuzda gedən sosial-iqtisadi inkişafın nəticələri hər yerdə olduğu kimi ən ucqar kəndlərdə belə əhalinin sosial rifah halının yaxşılaşmasında özünü göstərir. Ərazidə tikilmiş 5 ədəd yeni yaşayış evləri, 55-dən çox evlərdə aparılmış əsaslı təmir işləri,18 ədəd yeni qurulmuş çardaqlar,10 ədəd yeni alınmış minik avtomobilləri buna əyani sübutdur.

Hesabat ilində Ağstafa rayonu İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev 04 fevral və11 avqust 2016-cı il tarixlərində Tatlı kəndində vətəndaşların səyyar qəbulunu kecirmişdir. Qəbul zamanı vətəndaşlar tərəfindən 21 təklif irəli sürülmüş və həmin məsələlər öz həllini tapmışdır.

Rayonda aparılan abadlıq və quruculuq işlərinə uyğun olaraq Tatlı kəndində də göruləsi işlərimiz hələ çoxdur. 2017-ci ildə 2 ədəd yeni subartezian quyusunun qazılması, inzibati binanın dam örtüyünün dəyişdirilməsi,Tatlı kənd İ.Ə.D-də yerləşən kitabxana, klub, tibb məntəqəsinin,Yaradullu kənd əsas məktəbinin, Tatlı kənd 1 saylı,Yaradullu kənd körpələr evi-uşaq bağçalarının yenidən inşa edilməsi, arxların betonlaşdırılması , Tatlı kənd həkim məntəqəsinin, Mədəniyyət evinin əsaslı təmiri nəzərdə tutulur.

Biz 2017-ci ildə qeyd etdiyim problemlərin aradan qaldırılması üçün bütün imkanlardan səmərəli istifadə edəcək, kənd əhalisinin firavan yaşayışı üçün əlimizdən gələni edəcəyik.

Yığıncaqda QMƏVŞA-İctimai Birliyinin Ağstafa rayon şöbəsinin sədri Yaqub İsmayılov iştirak etmişdir.

hesabat verirlər

Muğanlı kəndi

Muğanlı kənd inzibati ərazi dairəsinin nümayəndəsi Nəbi Mürsəquliyev 2016-cı ildə gördüyü işlər və 2017-ci ildə qarşıda duran vəzifələr barədə kənd ictimaiyyətinə hesabat vermişdir. N. Mürsəquliyev yığıncaq iştirakçıları qarşısında məruzə edərək qeyd etmişdir ki, Muğanlı kəndi rayon mərkəzindən 40 km aralı bir məsafədə yerləşməsinə baxmayaraq, kəndin sosial-iqtisadi həyatındaa son bir neçə ildə böyük dəyişikliklər olmuşdur. Hesabat ilində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ağstafaya səfəri isə ən əlamətdar hadisələrdən biri olmuşdur.

Məruzəçi qeyd etmişdir ki, halhazırda nümayəndəlikdə 572 təsərrüfat olmaqla 498 yaşayış evi vardır. Hazırda kəndin ərazisində 287 nəfər əhali yaşayır ki, onlardan 412 nəfəri təqaüdçüdür. Fərdi torpaq sahəsində çalışanlar çıxılmaq şərti ilə faktiki olaraq hazırda kəndin ərazisində yaşayan əhalinin 237 nəfəri ayrı-ayrı sahələrdə daimi olaraq işləyirlər.

Məruzəçi N. Mürsəquliyev məruzəsində qeyd etdi ki, hesabat dövründə uzun illər kənd ictimaiyyətinin ürəklərində olan bir arzu həyata keçmiş, kəndin mərkəzində yeni istirahət parkı inşa olunmuşdur. Bundan əlavə kənddə yeni məhəllə adlanan yaşayış massivinin 11 kilometrə yaxın yolunun xırlanması təmin edilmiş, parkda gediş-gəliş üçün piyada səkiləri salınmış, əhalinin boş vaxtlarında istirahət etməsi üçün xüsusi yerlər düzəldilmişdir.

Əhalinin sosial şəraitinin yaxşılaşdırılması icra nümayəndəliyinin xüsusi diqqət mərkəzində olmuş, kəndə qaz çəkilişi ön plana çəkilmiş və bununla əlaqədar bütün işlər demək olar ki, tam başa çatdırılmışdır.

Hesabat dövründə Rayon icra hakimiyyətinin başçısı M. Quliyev bir neçə dəfə Muğanlı kəndində olmuş, kəndin sosial-iqtisadi durumunda olan problemlərin həll edilməsi üçün əlaqədar təşkilatların rəhbərlərinə xüsusi tapşırıqlar vermişdir. Bütün bunların nəticəsi olaraq meşə arxında 2800 metr məsafə lildən təmizlənmiş və bu arxla gələn su Sadıxlı kəndinin təsərrüfatlarının bir hissəsinin və qonşu təsərrüfat olan meşə təsərrüfatının suvarılmasını təmin etmişdir. Hazırda kəndin təsərrüfatdaxili arxlarından gələn su meşə arxından gələn sudur ki, bu da fərdi təsərrüfatların bir çoxunun suvarılmasını təmin edir.

İcra nümayəndəsi qeyd etdi ki, Muğanllı kəndinin əhalisinin əsas məşğulluq sahələrindən biri də heyvandarlıqdır. Hazırda kənd əhalisinin dolanışıq mənbəyini məhz heyvandarlıq sahəsindən götürülən gəlir vasitəsilə təmin edilir. 2016-cı ilin hazırkı dövründə kənddə 1089 baş iri buynuzlu malqara, 9250 baş xırda buynuzlu davar vardır. Bu rəqəmlərin hər ikisi əvvəlki ilin müvafiq dövründən xeyli çoxdur.

Hesabat dövründə Muğanlı kənd orta məktəbində təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün əsaslı tədbirlər həyata keçirilmişdir. Hazırda məktəbdə işləyən 51 nəfər müəllim 400 nəfər şagirdin təlim-tərbiyəsi ilə məşğul olur. Müəllimlərin gərgin əməyi sayəsində 2016-cı ildə 11-ci sinfi bitirən müdavimlərin 8 nəfəri ali məktəblərə, 4 nəfəri isə orta-ixtisas kollecləri nə daxil olmuşlar.

Kəndin ərazisində fəaliyyət göstərən kənd kitabxanası və klub həmin müəssisələrdə işləyənlərin vəsaiti hesabına təmir olunmuş, kitabxananın otağının yararsız hala düşmüş qapısı yeni dəmir seyf qapı ilə əvəz olunmuşdur.

Kənd icra nümayəndəsi N. Mürsəquliyev hesabat məruzəsində görülmüş işlərlə yanaşı qarşıdakı ildə həlli vacib olan məsələlər barəsində geniş söhbət açdı. O, qeyd etdi ki, 2017-ci ildə kəndarası yolların bir hissəsinin təmir edilməsi, kənddəki istirahət parkında abadlıq işlərinin davam etdirilməsi, əhalinin içməli suya olan tələbatını ödəmək üçün kənddə subartezian quyusunun qazılması nəzərdə tutulur. Bütün bunlardan əlavə icra nümayəndəliyində ailə və kəndli fermer təsərrüfatlarının yaradılmasına xüsusi diqqət yetirilməsi nəzərdə tutulur.

Hesabat yığıncağında N.Mürsəquliyevin məruzəsi geniş müzakirə olundu. Çıxış edənlər kənddə mövcud olan digər həlli vacib olan məsələlərdən danışdılar. Qeyd olundu ki, kənd ictimaiyyətini narahat edən ən vacib məsələlərdən biri fərdi təsərrüfatların, pay torpaqlarının suvarılmasıdır. Əgər həmin torpaqların suvarılması təmin edilərsə, kənddə daha çox kənd təsərrüfatı məhsulları tədarük edilər.

Yığıncaqda Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev iştirak etmiş və geniş nitq söyləmişdir. M. Quliyev son illər ölkədə aparılan qlobal işlərdən geniş danışmış, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionlarda kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğıdan söhbət açmışdır.

M. Quliyev son dövrlər Muğanlı kəndində aparılan abadlıq işlərini xüsusi qiymətləndirmiş və əmin olduğunu bildirmişdir ki, kənd icra nümayəndəliyi, kənd bələdiyyəsi bu cür tədbirləri bundan sonra da davam etdirməlidir. İcra başçısı yığıncaqda çıxış edənlərin irəli sürdükləri təkliflərə, qaldırdıqları problemlərə öz münasibətini bildirmiş və həmin problemlərin həll edilməsi üçün əlaqədar təşkilat rəhbərlərinə göstərişlər vermişdir.

Dağkəsəmən kəndi

Yanvarın 19-da Dağkəsəmən kənd 2 saylı orta məktəbin iclas zalında kənd icra nümayəndəsi Fazil Bayramovun hesabatı dinlənilmişdir. F. Bayramov qeyd etmişdir ki, Dağkəsəmən kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi Dağkəsəmən kənd yaşayış məntəqəsini əhatə edir. Kəndin ərazisində 1738 təsərrüfat vardır ki, bu təsərrüfatlarda 7382 nəfər əhali yaşayır.

Kənd sakinlərinin əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır. 2015-2016-cı təsərrüfat ilində kəndin ərazisində əkilmiş 586 hektar taxıl sahələrindən 28 sentner məhsul əldə olunmuşdur. Bununla bərabər kartof, soğan, bostan bitkilərinin əkininə də xüsusi diqqət yetirilmiş və həmin əkin sahəllərindən əvvəlki illərdən daha çox məhsul tədarük olunmuşdur.

F. Bayramov məruzəsində qeyd etmişdir ki, Dağkəsəmən kəndinin coğrafi şəraiti heyvandarlığı inkişaf etdirmək üçün xüsusilə əlverişlidir. Bu gün kənd əhalisinin gəlir mənbəyinin çox hissəsi heyvandarlıq sahəsindən əldə edilən gəlirlə bağlıdır. 2016-cı illin sonuna olan vəziyyət təhlil edilərkən aydın olur ki, kənddə mövcud olan təsərrüfatlarda 2150 baş iri buynuzlu qaramal, 17805 baş xırda buynuzlu davar, 21200 baş quş vardır.

F. Bayramov qeyd etdi ki, hesabat ilində icra nümayəndəliyinin, bələdiyyənin daxili imkanları hesabına bir çox işlər görülmüşdür. Kəndin içərisindən keçən Ağstafa-Qazax yolunun 1.5 kilometrində hasarlar əsaslı təmir olunmuş və rənglənmiş, 3.5 kilometr suvarma arxları təmizlənmişdir. İcra nümayəndəliyi imkansız ailələrə qayğı göstərilməsini həmişə diqqət mərkəzində saxlamış və həmin dövrdə 8 ailənin mənzil şəraitinin yaxşılaşdırılması üçün onlara tikinti materialı verilmiş, 2 imkansız ailənin mənzilinin qazlaşdırılması üçün onlara yardım edilmişdir. 2 nəfər Qarabağ əlilinə fərdi yaşayış evi tikilmiş və yaxın günlərdə həmin mənzillər onların istifadəsinə veriləcəkdir. Kənd qəbiristanlığının ətrafında abadlıq və təmizlik işləri aparılmış, yeni yaşayış məhəllələrinə 4 ədəd yeni güc transformatorları qoyulmuşdur.

F. Bayramov 2017-ci ildə qarşıda duran vəzifələr barədə ətraflı danışdı və qeyd etdi ki, kəndin mərkəzindən keçən magistral asfalt yolunun yeniləşməsi ən vacib məsələlərdən biridir. Yeni sallınmış məhəllələrdəki yaşayış evlərinin qazlaşdırılmasında və bu məhəllələrə elektrik xəttinin çəkilməsində bəzi problemlər vardır. Ən başlıca problemlərdən biri Dağkəsəmən kəndinə su-kanalizasiya xəttinin çəkilməsidir. Qazax şəhərində su-kanalizasiya xəttində yenidənqurma işləri aparılarkən Dağkəsəməndəki su-kanalizasiya xətləri həmin sistemə qoşularsa, kənddəki bu problem tamamilə həll edilə bilər.

Məruzə ətrafında çıxış edənlər ötən hesabat dövründə icra nümayəndəsinin fəaliyyətini kafi qiymətləndirdilər və Dağkəsəmən kəndinə su-kanalizasiya xəttinin çəkilişində olan problemin həll edilməsində onlara köməklik göstərilməsini Rayon icra hakimiyyətinin rəhbərliyindən xahiş etdilər.

Yığıncağın sonunda Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev çıxış edərək Fazil Bayramovun hesabat dövründəki fəaliyyətində mövcud olan bəzi nöqsan və çatışmazlıqları qeyd etdi və çıxış edənlərin toxunduqları problemlərin həll edilməsində onlara yaxından köməklik göstəriləcəyini bildirdi.

M. Quliyev əmin olduğunu bildirdi ki, icra nümayəndəsi 2017-ci ildə daha yaxşı işləyəcək, kənd əhalisinin hər bir müraciətinə diqqətlə yanaşacaqdır. İcra başçısı çıxışının sonunda dağkəsəmənliləri yeni il münasibətilə ürəkdən təbrik etdi, onlara xoşbəxt, firavan həyat və can sağlığı arzuladı.

Yeni iş yerləri yaradılır

Sosial-iqtisadi durumu gündən-günə zənginləşən Ağstafa yaxın bir neçə ildən sonra ölkəmizin sürətlə inkişaf edən sənaye şəhərlərindən biri olacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin keçən il oktyabr ayının 19-da rayonumuza səfəri bu istiqamətdə aparılan məqsədyönlü işləri daha da sürətləndirdi. Bu gün Ağstafanın elə bir guşəsi yoxdur ki, orada tikinti-quraşdırma, abadlıq işləri aparılmasın. Bütün bunlar isə son nəticədə Ağstafada yeni iş yerlərinin yaradılması, əhalinin daimi işlə təmin olunması üçün zəmin yaradır.

Görülən işlərə aydınlıq gətirmək, yaradılmış iş yerləri barədə oxuculara daha ətraflı məlumat vermək üçün Rayon icra hakimiyyəti başçısının müavini-sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Aydın Hacıyevlə görüşüb söhbət apardıq və ondan bu barədə qəzetimizə müsahibə verməyi xahiş etdik. A. Hacıyev dedi:



-Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yerlərdə iş adamlarının investisiya qoyuluşuna cəlb edilməsinə, sənaye zonalarının yaradılmasına, əhalinin məşğulluğunun artırılmasına dair göstərişləri və tapşırıqları hər yerdə olduğu kimi, Ağstafada da uğurla həyata keçirilir. Rayonda yeni istehsal müəssisələrinin tikilməsi buna əsaslı misaldır. Bu gün Ağstafada eyni vaxtda dörd yeni körpü, xalça və mebel fabrikləri, taxıl məhsulları istehsalı kombinatı tikilir. Keçən ilin son aylarında Bakı-Qazax magistral yolunun kənarında "Karvan-L" EKO sənaye parkı, Modern fabriki tikilib istifadəyə verildi. Bütün bunların hamısı ilk növbədə əhali üçün yeni iş yerlərinin yaradılması deməkdir.

Faktlara əsaslanıb deyə bilərəm ki, rayonda fəaliyyət göstərən Saloğlu mebel fabrikində bu gün 200-dən çox ağstafalı işləyir. Həmin fabrikin nəzdində yeni istifadəyə verilən Modern fabrikində isə 240 nəfər vətəndaş üçün yeni iş yeri açılmış, keçən il təməli qoyulan Venzana fabriki tikilib istifadəyə verildikdən sonra isə Saloğlu fabrikində işçilərin sayı 600 nəfərdən çox olacaqdır.

Ən iri sənaye parkı olan "Karvan-L" EKO fabrikində istifadəyə verilən sexlərdə hazırda 134 nəfər çalışır. Fabrikin nəzdində yeni istehsal sexlərinin işə salınması üçün qızğın iş gedir. Tatlı kəndində yerləşən mədəndən təbii daşların parka gətirilməsi və burada həmin daşların kəsici qurğularla kəsilib mozaik daşların hazırlanması fabrikin gücünü daha da artıracaq, yeni iş yerlərinin yaranmasına səbəb olacaqdır. Sənaye parkında istixana kompleksinin tikintisinin başa çatması və digər müəssisələrin ardıcıl olaraq işə salınması istiqamətində aparılan işlər davam edir.

Hüseyn Arif küçəsində tikilməkdə olan xalça fabriki diqqəti cəlb edəcək sənaye müəssisələrindən biri olacaqdır. Hazırda fabrikin tikintisində 20 nəfərdən çox ağstafallı işləyir. Fabrik tikilib istifadəyə verildikdən sonra burada 180 nəfər qadın xalça toxumaqla məşğul olacaq və öz ailələri üçün məvacib əldə edəcəklər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı əsasında əsaslı təmir işləri aparılan Ağstafa şəhəri 3 saylı orta məktəbində 30 nəfər, yeni inşa edilən körpülərin tikintisində 50 nəfər, Köhnə Qışlaq kənd orta məktəbin tikintisində 35 nəfər adam işləyir. Bütün bunlardan əlavə qeyd etməliyəm ki, rayonda boş iş yerləri hələ çoxdur. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, hazırda Rayon Məşğulluq mərkəzində 156 vakant boş iş yeri vardır.

Xüsusilə qeyd etmək istərdim ki, 2016-cı ildə rayonda mövcud olan boş iş yerləri hesabına işlə təmin olunan əhalinin sayı əvvəlki illərdən qat-qat çox olmuşdur. Keçən il rayonda 1707 nəfər adam işlə təmin olunmuşdur ki, onların da 71.8 faizini, yəni 1227 nəfərini daimi işlə təmin olunanlar təşkil edir. İşləmək istəyənlər hər bir vaxt Rayon Məşğulluq mərkəzinə müraciət edə bilərlər. Bundan əlavə boş iş yerləri barədə şəhərimizdə əhalinin daha çox olan yerlərində elanlar vurulur. Bütün bunlar o deməkdir ki, işləmək istəyənlər üçün rayonumuzda boş iş yerləri həmişə olmuş və bu gün də vardır.

Hörmətli Aydın müəllim, müsahibə üçün minnətdarlığımı bildirir və biz də əminik ki, işlə təmin olmaq istəyən vətəndaşlar ünvanı dəyişik salmayıb birbaşa Rayon Məşğulluq mərkəzinə müraciət edəcəklər.

Müsahibəni apardı:
İbrahim Əliyev

Ünvanlı sosial yardım alanlara yeni il hədiyyəsi verildi

Yeni il ərəfəsində ölkəmizin bütün vətəndaşları dövlət başçısının tapşırığına əsasən xüsusi diqqət və qayğı ilə əhatə olundu. Bayram ərəfəsində Ağstafa şəhərində, eləcə də rayonun bütün yaşayış məntəqələrində yeni il şənlikləri təşkil olundu, imkansız ailələrə, şəhid ailələrinə bayram sovqatları paylanıldı.

Dekabr ayının 31-də ölkə rəhbərliyinin göstərişinə əsasən Heydər Əliyev fondu tərəfindən ünvanlı sosial yardım alanlara bayram sovqatı verildi. Həmin gün Rayon sosial müdafiə fondunda qeydə alınan 1264 nəfər ailə Sosial Müdafiə Fonduna dəvət olundu və Heydər Əliyev fondu tərəfindən ayrılmış bayram sovqatı onlara paylanıldı. Bayram sovqatı alan vətəndaşlar onlara göstərilən bu diqqət və qayğıdan məmnun oldular və ölkə rəhbərliyinə, eləcə də Heydər Əliyev fondunun rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirdilər.

Tikinti işləri sürətlə davam edir

2016-cı il Ağstafanın tarixinə qızıl hərflərlə yazılan illərdən biri oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həmin ilin oktyabr ayında Ağstafaya səfəri rayonun sosial-iqtisadi həyatında yeni səhifələr açdı. Dövlət başçısı Ağstafada səfərdə olarkən bir neçə sosial mədəni obyektlərin açılışını etdi, yeni sənaye obektlərinin təməlini qoydu.

Təməli qoyulan sənaye obyektlərindən biri də Ağstafa "Aqroservis" MMC-nin nəzdində yaradılacaq taxıl və un məmulatları istehsalı kombinatının taxıl dəyirmanı oldu.

Rayonun iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edəcək bu sənaye müəssisəsində tikinti işlərinin gedişi ilə yaxından tanış olmaq üçün bu günlər həmin obyektdə olduq. İlk öncə burada tikinti işlərinə nəzarət edən Zaur Bayramovla görüşdük. O, gəlişimizin məqsədini bilən kimi bizi birbaşa iş üstünə apardı. Tikinti meydançasında iş icraçısı Anar Nağıyevlə görüşdük. A. Nağıyev cənab prezidentin buraya səfərindən sonra görülmüş işlər barədə ətraflı məlumat verdi. O, bildirdi ki, kombinatın Bakı-Qazax magistral yolunun kənarında inşa edilən iki nəhəng binadan biri inzibati bina kimi, digəri isə hazır məhsulların sərgisi və satışı üçün nəzərdə tutulur. Hazırda hər iki binada hörgü və beton işləri başa çatdırılmışdı. Bütün bunlarla yanaşı un məmulatları hazırlanacaq şirniyyat, yarımfabrikat məhsulların istehsalı nəzərdə tutulan sexdə və anbar kimi istifadə ediləcək binada iş sürətlə davam edir.

Bütün bunlarla yanaşı cənab prezidentin təməlini qoyduğu sexdə də işlər sürətlə davam edir. Həmin sexdə binanın özülündə bütün işlər tam başa çatdırılmış və hazırda dəmir-beton işləri aparılmaqdadır. Yaxın günlərdə bu sexdə hörgü işlərinin aparılmasına başlayacağıq. A. Nağıyev söhbət zamanı onu da bildirdi ki, hazırda taxıl

və un məmulatları istehsalı kombinatının hər üç sexində yetmişdən çox inşaatçı çalışır. Məqsədimiz 2017-ci ilin, yəni bu ilin may ayınadək burada bütün tikinti işlərini başa çatdırmaqdır.

Mən fürsətdən istifadə edib kombinatımızın rəhbərliyinə işçilərimiz adından dərin minnətdarlığımı bildirirəm. Yeni il ərəfəsində inşaatçılarımızın hamısına yeni il hədiyyələri verildi. İşçilərimiz rəhbərliyin bu diqqət və qayğısını çox böyük razılıqla qarşıladılar. Bizim məqsədimiz isə kombinatda bütün işləri nəzərdə tutulmuş vaxtda başa çatdırmaqdan ibarətdir. Bunun üçün əlimizdən gələni edəcəyik.

İbrahim Əliyev

Fənn olimpiadaları

Rayonumuzun ümumtəhsil müəssisələrində cari tədris ili uğurla davam etdirilir. Pedaqoji kollektivlər şagirdlərin təlim-tərbiyəsi işini daha yaxşı təşkil etmək üçün səylərini əsirgəmirlər. Təhsilin bu məzmunda davam etdiyi günlərdə fənn olimpiadalarının keçirilməsinə başlanmışdır.

Yanvarın 15-də Ağstafa şəhər 2 saylı orta məktəbdə respublika fənn olimpiadalarının rayon mərhələsi keçirilmişdir. Olimpiadanın rayon mərhələsində Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya fənləri üzrə 300 nəfərədək IX-Xisinif şagirdləri iştirak etmişdir. Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya fənləri üzrə təqdim edilmiş test suallarının cavablandırılmasına 90 dəqiqə, digər fənlərə isə 180 dəqiqə vaxt verilmişdir.

Qaydalara əsasən hər bir fənn və sinif üzrə təqdim edilmiş sualların 60 faizindən çoxuna cavab vermiş 3 nəfər şagird olimpiadanın növbəti mərhələsində iştirak etmək hüququ qazanır. Yeri gəlmişkən o da xüsusi ilə qeyd edilməlidir ki, 2016-cı ildə fənn olimpiadalarının respublika mərhələsində Dağkəsəmən kənd 1 saylı tam orta məktəbin şagirdi coğrafiya fənni üzrə ikinci yeri tutaraq gümüş medal, humanitar liseyin şagirdi isə tarix fənni üzrə üçüncü yeri tutaraq bürünc medal qazanmışdır.

Yeni binada yeni ruhla

Yola saldığımız 2016-cı il bizim musiqi məktəbinin tarixinə qızıl hərflərlə yazıldı. Keçə ilin noyabrında sevimli prezidentimiz İlham Əliyevin rayonumuza səfəri bütün ağstafalılar kimi, bizim musiqi ocağı kollektivini də ürəkdən sevindirmişdir. Bununla bərabər bizə ikinci böyük sevinc qismət olmuşdur. Hörmətli prezidentin Ağstafada olarkən açılış mərasimini keçirdiyi mühüm yeni obyektlərdən biri də bizim musiqi məktəbi olmuşdur. Bu fərəhli tarixi biz heç bir zaman unutmayacağıq.

Budur, biz yeni ilin ilk günlərindən yeni məktəbdə işə başlamışıq. Adam inana bilmir. Sanki nağıllar aləminə düşmüşük. Dar, qaranlıq, yöndəmsiz otaqlardan geniş, işıqlı, par-par parıldayan sinif otaqlarına gəlmişik. Doğrusunu deyim ki, hələ bu xoşbəxt günümüzə tam inamımız gəlmir. Bir neçə gün əvvəlki iş şəraitimizlə hazırkı vəziyyətimiz heç cür müqayisəyə gəlmir. Adam inana bilmir ki, uzun illər darısqal, köhnə, uçuq-sökük binada keçirdiyimiz acı günlər indi arxada qalmışdır. Bizə yaradılan bu gözəl şərait üçün ilk növbədə cənab prezidentimiz İlham Əliyevə, rayonumuzun icra başçısı hörmətli Məhərrəm Quliyevə, bu möhtəşəm binanı qısa bir zamanda tikib bizim istifadəmizə verən qəhrəman inşaatçılara ürəkdən minnətdarlığımızı bildiririk.

Bu böyük və misilsiz hədiyyənin müqabilində mən son illlərdə əldə etdiyimiz uğurlardan danışmaq istəyirəm. Əvvəlcə onu deyim ki, bizim musiqi məktəbi 1975-ci ildə sevimli xalq şairimiz Hüseyn Arifin təşəbbüsü ilə yaradılıb. Ağstafa şəhər 1 nömrəli orta məktəbinin yardımçı sinif otaqlarında yerləşdirilən məktəbdə cəmi 7 nəfər müəllim çalışırdı və onlar 44 nəfər uşağa dərs keçirdi. Uşaqlara cəmi üç musiqi alətində çalmaq öyrədilirdi.

İllər ötdükcə məktəbizin şöhrəti artmağa, ad-sanı yüksəlməyə başladı. İndi o vaxtları yada salanda heyrətə gəlməmək olmur. Bu gün məktəbimizdə 90 nəfər müəllim çalışır. Onlar 270 nəfər şagirdə ona qədər çalğı alətində çalmaq öyrədirlər. Rayonun şəhər və kənd məktəblərində oxuyan istedadlı şagirdlər eyni zamanda bizim məktəbdə piano, tar, kamança, skripka, saz, qarmon, nağara və muğam öyrənir, milli musiqimizin sirlərinə yiyələnirlər.

Kollektivimizin hər bir üzvü onsuz da o çətin şəraitdə də var qüvvə ilə işləyirdilər. Piano müəllimləri Flora Hacıyeva, Elmira Abbasquliyeva, tar müəllimləri Zülfiyyə Hüseynova, Elçin Qasımov, muğam müəllimi Gültəkin Hüseynova, qarmon ustası Bilal Axundzadə və başqaları yeni binada daha yüksək ruhla, böyük həvəslə çalışırlar. İstəyirik ki, bizə göstərilən bu böyük qayğı, sonsuz diqqət üçün daha yaxşı işləyək, yeni-yeni uğurlar əldə edək. Möhtərəm prezidentimizin bizə bəxş etdiyi bu qiymətli hədiyyəyə ancaq yaxşı işimizlə cavab verməliyik.

İftixar hissi ilə demək istəyirəm ki, ötən ilki ürəkaçan uğurlarımız məktəbimizin şöhrətini bir az da artırmışdır. Keçən il müstəqilliyimizin ikinci dəfə bərpa olunmasının 25 illiyinə həsr edilmiş respublika müsabiqəsində məktəbimizin ikinci sinfində oxuyan Məryəm Rüstəmova kamança ifasında mükafata layiq yer tutaraq fəxri fərman qazanmışdır. Həmin müsabiqədə muğam ifaçısı Mustafa Mustafayev (4-cü sinif) ikinci yeri tutmuşdur. Məktəbimizin fəxri sayılan Qoca Ərəbov isə saz ifaçılığında müsabiqənin qalibi hesab edilərək diploma layiq görülmüşdür.

Mənə elə gəlir ki, bu uğurlar bizim üçün çox da böyük nailiyyət deyil. Bizim üçün yaradılan indiki gözəl şərait kollektivin hər bir üzvünü daha yüksək qələbələrə səsləyir. Yeni binamızda olan 40 sinif otağı burada 300-400 uşağa çalıb-oxumaq öyrətməyə imkan verir. 300 yerlik geniş konsert zalı da cürbəcür mədəni-kütləvi tədbirlər, maraqlı konsertlər təşkil etməyə imkan verir. Bir sözlə, yaxın gələcəkdə milli musiqi aləti formasında inşa olunmuş bu möhtəşəm binanın ən böyük musiqi mərkəzinə çevrilməsi arzu-istək olaraq qalmayacaqdır.

Bir sözlə, musiqi məktəbinin yeni binası son illərdə respublikanın qərb bölgəsi olan Ağstafada aparılan saysız-hesabsız tikinti-abadlıq, quruculuq və yenidənqurma işlərinin bir layihəsidir. Bu layihələrin böyük bir hissəsi artıq başa çatmış, bir hissəsi isə hazırda davam etdirilir. Bəli, Ağstafa respublikanın qərb qapısında öz gözəllyi, abadlığı və yeni tikintiləri ilə dünyaya nur saçır. Bu nurun içində ud formalı yeni musiqi mərkəzinin ziyası göz qamaşdırır.

Fürsətdən istifadə edib bir xırda məsələni qeyd etməyi özümə borc bilirəm. Rayonumuzun hər guşəsindən bizim məktəbə işləməyə və ya təhsil almağa gələnlər var. Məktəbimiz Ağstafanın mərkəzindən bir az aralıdır. Ona görə məktəbə gedib-gəlmək bir az çətinlik törədir. Xüsusilə də yağışlı-yağmurlu günlərdə kiçik yaşlı uşaqlar daha çox əziyyət çəkirlər. Bu çətinliyi aradan qaldırmaq üçün şəhərarası marşrutun hərəkətini nizama salmaq çox yaxşı olardı. Bu, məktəbimizdə çalışanların da, təhsil alanların da razılığına səbəb olardı.

Arif Əliyev,
Ağstafa şəhər musiqi məktəbinin direktoru

Qrip-mövsümü xəstəlikdir

Qrip-qrip virusu tərəfindən törədilən nəfəs yollarının kəskin infeksion xəstəliyidir. Bu xəstəliyə insanlar, heyvanlar və quşlar da yoluxur. Əsas simtomları titrətmə, qızdırma, boğaz ağrısı, əzələ ağrıları, kəskin baş ağrısı, öskürmə, zəiflik, üşütmə, narahatlıqdır. Bunlar arasında boğaz ağrısı, qızdırma və öskürək ən çox rast gəlinənlərdir. Qrip kəskin şəkildə olduqda sətəlcəm ilə nəticələnə bilər. Bu isə ölümə nədən ola bilər. Xüsusi ilə sətəlcəmə tutulma halları azyaşlı və qoca insanlarda daha çox baş verir.

Qrip kəskin repirator xəstəlik olub öskürmə və asqırma yolu ilə ötürülür. İnsanın qrip virusu ilə yoluxma simtomlarının ortaya çıxmasından 1 gün əvvəl başlanır, 5-7 gün müddətinə davam edir. Həmin müddətdə qrip olan insan digər insanlarda yoluxdurma qabiliyyətinə malik olur. Temperaturu daha yüksək olan insanlar adətən virusu daha çox yayırlar. Körpə uşaqlar bu virusun daha çox yayılmasında iştirak edirlər. Qripə tutulmuş xəstələrin böyük bir qismi evdə müalicə olunur. Lakin qrip ağır forma aldıqda xəstəni evdə saxlamaq onun vəziyyətinin daha da pisləşməsinə səbəb ola bilər. Xəstə yatan otağın havası tez-tez dəyişdirilməlidir, döşəməsi nəm üsulla dezinfeksiya edilməlidir. Xəstəyə qulluq edən şəxs maskadan və rezin əlcəkdən istifadə edilməlidir.

Səhiyyə Nazirliyinin 65 saylı əmrinə əsasən kəskin qrip xəstəliyinin müalicəsi üçün Mərkəzi rayon xəstəxanasının yoluxucu xəstəliklər və uşaq şöbəsində xüsusi otaqlar hazırlanmış və lazımi avadanlıqlar və dərmanlarla təchiz edilmişdir. Ümumi təhsil və məktəbəqədər uşaq müəssisələrində sanitar-maarifi işi aparılmış, xüsusi tapşırıqlar verilmişdir ki, məktəbə daxil olan uşaqlar həkim nəzarətindən keçirilsin, tempuraturlu uşaqlar məktəbə və məktəbəqədər uşaq müəssisələrinə qəbul edilməsin. Bundan əlavə, sinif otaqlarının havası tez-tez dəyişdirilsin, döşəmələr nəm üsulla dezinfeksiyaedici dərmanla silinsin. Hal-hazırda qrip xəstəliyi kütləvi hal almamışdır. Ağstafa rayonundaa fəaliyyət göstərən tibb məntəqələrinin müdirləri və konsultativ uşaq poliklinikasının həkimləri Səhiyyə Nazirliyinin 65 saylı əmri ilə tanış edilmişdir. Fəaliyyət göstərdikləri ərazidə kəskin qrip xəstəliyi aşkar edilərsə, xəstəni təcili olaraq xəstəxanaya yerləşdirilməsi Ağstafa rayon Gigiyena və Epidemiologiya Mərkəzinə xəstə haqqında məlumat daxil edilməlidir. Bundan əlavə hər kəs öz şəxsi gigiyenasını gözləməlidir.

Zoya Nəbiyeva,
Ağstafa rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru

Yurd həsrəti, el nisgi-

Hər gün redaksiyaya xeyli məktub daxil olur. Bu məktubların hərəsi bir məna kəsb edib, bir məzmuna malik olsa da, hamısı maraq baxımından diqqəti cəlb etmir. Ötən ilin sonlarında məktubları nəzərdən keçirərkən üstü qarmaqarışıq xətlə yazılmış bir zərf diqqətimizi cəlb etdi. Hiss olunurdu ki, yaşlı adam çətinliklə yazıb zərfin üstünü. Tələsik zərfi açıb üstündəki vərəqə həmin xətlə yazılmış şeiri oxuduq:

Düşmən bizi yaman salıb çöllərə,
İtirmişik elimizi, qardaşım,
Dərd-dərimiz dastan olub dillərə,
Sındırıbdı belimizi qardaşım...

Şeirdəki nisgil, həsrət dolu misralar bizə əyan etdi ki, müəllif ata-baba yurdundan didərgin salınan soydaşlarımızdan biridir. Dərhal müəllifin ünvanını axtardıq və məktubda göstərilən ünvana gedib onunla tanış olmaq qərarına gəldik.

Ağstafa şəhərinin C.Cabbarlı küçəsindəki ünvanda bizi gülərüz, mehriban, şirindil bir gəlin qarşıladı. Novruz kişini soruşanda bildirdi ki, düz gəlmisiniz, keçin otağa, bu dəqiqə çağırım. Novruz kişi içəri girəndə başa düşdük ki, doğma yerlərdən ayrılmaq, yurd-yuva itirmək nə deməkdi. El həsrəti soldurmuş çöhrəsi, nisgil əymiş qədd-qaməti onun nələr çəkdiyini aydın göstərirdi. Nə yaxşı ki, şeir yazmaq bacarırmış. "Ürəyimə dolan qəmqüssəni şeirə köçürüb vərəqlərə yazmasam, çoxdan partlayıb ölmüşdüm"-dedi:

Novruza demə bivəfa,
Azmı çəkdim səndə cəfa,
Nə zalım gəldi insafa,
Nə də məndə dözüm qaldı...

Namərd erməni qonşularımızın dədə-baba torpaqlarından zorla qovduqları Novruz Hümbətovla səmimi söhbət əsnasında yaxından tanış olduq. Öyrəndik ki, 1926-cı ildə İcevan rayonunun Polad kəndində doğulmuşdur. Qonşu Çaykənd kəndində orta məktəbi bitirəndən sonra Azərbaycan Pedaqoji İnstitutu fizika-riyaziyyat fakültəsini bitirmiş, yenidən İcevan rayonuna qayıdaraq Salah kəndində müəllim işləməyə başlamışdır. Bir müddətdən sonra Ağkilsə kənd səkkizillik məktəbinə direktor təyin olunmuş və 1988-ci ilin noyabr ayına qədər burada çalışmışdır.

1988-ci ilin axırında namərd erməni qonşularımız torpaq iddiası ilə ölkəmizə qarşı təcavüzə başlayanda başqa kəndlərin əhalisi ilə yanaşı İcevan rayonunun azərbaycanlılar yaşayan kəndlərini də dədə-baba yurdlarından zorla qovdular. O zaman Novruz Hümbətov köçüb Ağstafaya gəlmiş, burada özünə sığınacaq tapmışdır.

O vaxtdan bəri Novruz kişi müəllimliyi tərk etsə də, Ağstafada müxtəlif sahələrdə işləmiş, özünə ev-eşik və güzəran düzəltmişdir. Necə deyərlər, günü-güzəranı pis keçməsə də, o vaxtdan bəri vətən həsrəti, el-oba nisgili onu bir an da rahat buraxmamışdır. Bu hisslər, incə duyğular məktəb yaşlarından müxtəlif məzmunlu şeirlər yazan Novruz kişinin bədii yazılarında da aşkar bilinir:

Dünya cənnət-məkan olsa,
Getmərəm heç hara sənsiz,
Gözüm-gözünə baxmasa,
Günüm olar qara sənsiz...

Bu gün Novruz kişi 90 yaşına əlvida desə də, gəzdiyi oylaqların, sərin sulu bulaqların, başı buludlara dəyən ulu dağların həsrəti ilə yaşayır. Hər yada salanda qəlbi kövrəlsə də, yazıb-yaratmaqdan doymur, dərd-qəmini yazdığı şeirlərə köçürür.

İndi Novruz Hümbətovun həsrət-nisgil duyğularına şərik olaraq iki şeirini oxuculara təqdim edirik.

Qaldı

Soruşma əhvalım, a qan qardaşım,
Bilirəm laləli dağlarım qaldı,
Atam becərdiyi, babam əkdiyi
Almalı, heyvalı bağlarım qaldı.

Namərdlər gör necə iş eylədilər,
Sinəmi oxlara tuş eylədilər,
Gözəl baharımı qış eylədilər,
Qurudu bostanım, tağlarım qaldı.

Rüzigar bəd gəldi, borana düşdüm,
Tufana, çovğuna, qara nə düşdüm,
Dağlar qartalıydım arana düşdüm,
Sinəmdə çəkilməz dağlarım qaldı.

Bir təbib istərəm yaza dərdimi,
Köhnəlmişdi, etdim təzə dərdimi,
Ayrılıq yetirib yüzə dərdimi,
Novruzam ən şirin çağlarım qaldı.

Dağlar

İndi gəlib bahar fəsli,
Açıbdımı lalə, dağlar?
Cəh-cəh vuran bülbüllərin
De gəlirmi dilə, dağlar.

Quzeylərdə yatan qarın
Əriyirmi narın-narın?
Elin-oban havadarın,
Düşüb çöldən-çölə, dağlar.

Dolaylarda dolanmışam,
Şehə-suya bulanmışam,
Yad ocaqda qalanmışam,
Yanıb döndüm külə, dağlar.

Gözəl Göytalanın düzü,
Yaylayırmı gəlin-qızı,
Hüseyn, Nəcəf çalsa sazı,
Deynən çəksin zilə, dağlar.

Novruz sizdə qalasıydı,
Arzu-kamın alasıydı,
Ağır elin balasıydı,
Düşdü qürbət elə, dağlar.

Qələm dostumuz haqqında söz

"Kəlbəcər amanatı"

Kərim Mədədov doğma el-obası Kəlbəcərdən qaçqın düşəndən sonra bizim Ağstafaya sığınmışdır. O yerlərdən bircə nişanə saxlaya bilmişdir. Doğulduğu Mərcimək kəndinin adını özünə təxəllüs götürnüşdür: Kərim Mərcimək li. Bu imşa ilə Kəlbəcər nisgilli şeirlər yazmış və el-obaya özünü bu imza ilə tanıtmışdır.

Kərim Mərcimək li 2013-cü ildə bir kitab da nəşr etdirmişdir. "Kəlbəcərsiz döyünən ürək" adlı həmin kitabda başqa bədii yazılarla bərabər el-oba həsrəti, Kəlbəcər nisgili ilə dolu şeirləri də diqqəti daha çox cəlb edir. Böyük yanğı və ürək ağrısı ilə yazılmış bu şeirlər hamımızı düşmən tapdağı altında qalmış Kəlbəcər, Laçın, Şuşa, Zəngilan, Qubadlı, Ağdam torpaqlarının dərdi ilə yükləyir, ürəkləri kövrəldir.

Həmişə gələcəyə ümidllə baxırdı Kərim Mərcimək li. İnanırdı ki, tezliklə torpaqlarımız geri qaytarılacaq, doğma Kəlbəcərə qovuşacağıq:

Tamarzıyıq oylağına,
Həsrət qaldıq yaylağına
Qayıdarıq qucağına,
Bədbin olma, Kəlbəcərim!

Amma ömür vəfa etmədi. Müdhiş xəstəlik ona aman vermədi. Dilində "Kəlbəcər" kəlməsi gözlərini əbədi yumdu bu fani dünyaya. Ölümündən qabaq kövrək halda başına toplaşanlara bircə vəsiyyət edə bildi: "Kəlbəcəri sizlərə tapşırıb gedirəm, Kəlbəcər amanatı, o yerlərə qayıdanda məni də yad edəsiniz".

Etibarsız sayılır

Həsənsu kənd sakini İsmayılova Gülnaz Mirzə qızının adına verilmiş JN-374F nömrəli Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə və torpağın mülkiyyətə verilməsinə dair JN-0074 nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Köçvəlili kənd sakini İsmayılov Dursun Məhəmməd oğlunun adına verilmiş JN-198 nömrəli pay torpağının Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

"N" saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Əmrahov Elşad Ramiz oğluna məxsus 00115294 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Zəlimxan kənd sakini Bayramova Aytən Günəş qızının adına verilmiş JN-214A (kod 502050181) nömrəli Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Aşağı Göycəli kəndində yaşamış, mərhum Məmmədov Hamlet Hacı oğlunun adına verilmiş JN-314A nömrəli Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Allah rəhmət eləsin!

Rayon icra hakimiyyəti aparatının kollektivi aparatın məsul işçisi Kamran Abbasova qardaşı
İlqar Abbasovun
vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

* * *

Rayon icra hakimiyyəti aparatının kollektivi aparatın məsul işçisi İlqar Hacıyevə, anası
Başxanım Bayramovanın
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

Rayon Suvarma Sistemləri idarəsinin və Hidroqovşaq İstismar idarəsinin rəhbərləri Tofiq Bayramov, Yusif Nəsibov RİH-in məsul işçisi İlqar Hacıyevə, anası
Başxanım Bayramovanın
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

Rayon icra hakimiyyəti aparatının işçiləri, Rayon ağsaqqallar şurasının üzvləri, bir qrup idarə, müəssisə rəhbərləri, yaxın dostları "Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyevə Bakı şəhərində yaşayan bacısı qızı
Sevinc xanımın
vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

* * *

Rayonun şəhər, qəsəbə, kənd icra nümayəndələri, bələdiyyə sədrləri Aşağı Kəsəmən kənd icra nümayəndəsi
Adil Mirzəyevin
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə, yaxın qohumlarına dərin hüznlə başsağlığı verirlər.

* * *

Meydanalı Mansurov, İbrahim Əliyev, Azər İmamverdiyev, Oqtay Məsmalıyev, İlham İbrahimov, Cəmaləddin Rzayev, Mirəsgər Mahmudov, Gülgün Kərimov, Yusif Nəsibov, Tofiq Bayramov yaxın dostları Kamran Abbasova, qardaşı
İlqarın
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

Rayon təhsil şöbəsinin kollektivi "Əməkdar müəllim" İndira Səmədovaya, anası
Sənubər xanımın
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

Ağstafa şəhər 1 saylı orta məktəbin kollektivi "Əməkdar müəllim" İndira Səmədovaya, anası
Sənubər xanımın
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

Ağstafa şəhər 2 saylı orta məktəbin kollektivi "Əməkdar müəllim" İndira Səmədovaya, anası
Sənubər xanımın
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

Şəhər poliklinikasının işçiləri Esmira, Laura, Mətanət, Tərənə, Zöhrə, Şəmsiyyə, Şəfəq, Minarə, Tükəzban, Atlaz, iş yoldaşları Flora Vəliyevaya, anası
Sənubər xanımın
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

"Ağstafa" qəzetinin əməkdaşları İbrahim Əliyev, Firdovsi Heydərli, Qəhrəman Qurbanov, Rayon Ağsaqqallar şurasının üzvləri RİH-in məsul işçisi Kamran Abbasova, qardaşı
İlqarın
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

"Ağstafa" qəzetinin əməkdaşları İbrahim Əliyev, Firdovsi Heydərli, Qəhrəman Qurbanov, Rayon Ağsaqqallar şurasının üzvləri RİH-in məsul işçisi İlqar Hacıyevə, anası
Başxanım xanımın
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

Rayon Maliyyə şöbəsinin kollektivi RİH-in məsul işçisi Kamran Abbasova, qardaşı
İlqarın
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

* * *

Ağstafa şəhər icra nümayəndəliyinin və şəhər bələdiyyəsinin kollektivi RİH-in məsul işçisi İlqar Hacıyevə, anası
Başxanım xanımın
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

* * *

"Ağstafa" qəzetinin əməkdaşları Aydın Tağızadəyə, yeznəsi
Abbas Paşayevin
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

* * *

Ağstafa şəhər 3 saylı orta məktəbin kollektivi Aydın Tağızadəyə, yeznəsi
Abbas Paşayevin
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR:
İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
"Ağstafa" qəzetinin jurnalist kollektivi
Şəadətnamə № 308

Redaksiya heyəti
L.Eyyubova, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, L.İsayeva, G.Kərimov, A.Tağızadə, F.Heydərli

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan:
Ağstafa şəhəri,
Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000